(əvvəli ötən sayımızda)

# ZİRVƏLƏRƏ UCALMAQ! QARŞI DAĞLAR KİMİ...

**"Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 19 avqust tarixli 1364 nömrəli Sərəncamının icrası olaraq rayonda süni mayalanma yolu ilə alınmış buzovlara görə cari ilin I yarısında 1532 baş heyvan sahiblərinə 15320 manat subsidiya hesablanmış və ondan 1020 baş heyvan sahiblərinə 10200 manat subsidiya ödənilmişdir.**

Tütünçülüyü inkişaf etdirmək məqsədi ilə fermerlər arasında tütünçülüyün ixrac potensiallı olması barədə geniş maarifləndirmə tədbirləri davam etdirilmiş, cari ildə 615,20 ha sahəyə tütün əkilərək 1842 nəfər mövsümi işə cəlb edilmişdir.

Artıq rayonda məhsul yığımı işlərinə başlanılmış 01.07.2019-cu il tarixə 9,3 ton quru tütün istehsal edilmişdir, hazırda tütün tədarükü davam edir.

Rayonda mövcud olan fındıq bağlarının sahəsinin iki dəfə artırılması ilə əlaqədar müvafiq tədbirlər davam etdirilir. Bu ilin yaz mövsümündə 255 ha sahədə yeni fındıq bağları salınaraq mövcud fındıq bağları 19760 hektara çatdırılmışdır.

Cari ildə rayonda barama istehsalı ötən illə müqayisədə 4846 kq və ya 8% artırılaraq "Şəki-İpək ASC"-yə 52, 95 ton yaş barama təhvil vermişdir.

Rayonumuz üçün ənənəvi və ixrac potensialı yüksək olan sahələrdən biri də gülçülükdür. Hesabat dövründə "AZROSE" MMC tərəfindən əlavə 20 ha sahədə qızılgül tingləri əkilərək qızılgül sahəsi 144,79 hektara, lavanda sahəsi isə 36,18 hektara çatdırılmış, bar verən sahələrdən 280 ton qızıl gül, 26 ton lavanda ləçəyi tədarük edilmiş, müəssisə tərəfindən 70.5 kq qızıl gül yağı və 1034 kq lavanda yağı istehsal edilmişdir.

"Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 mart tarixli 3747 nömrəli Sərəncamının icrası məqsədi ilə rayonun inzibati ərazi dairələri üzrə 2019-cu il mövsümü üçün sənədlərini təqdim etmiş 1250 nəfər arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları 28825 arı ailəsinə (pətəyə) görə 288250 manat subsidiya hesablanmışdır.

Iyul ayının 31-də keçirilən müşavirədə Cənab Prezident kənd təsərrüfatında da rekord göstərici əldə edildiyini, kənd təsərrüfatının bu ilin altı ayında 13 faiz artdığını, artımın xüsusilə bitkiçilik hesabına olduğunu qeyd edərək demişdir:- "Bitkiçilik 25 faiz artmışdır. Bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək."



Odur ki, rayonda fəaliyyət göstərən əlaqədar təşkilatlar və fermer təsərrüfatları bütün imkanları səfərbər edərək cənab Prezidentin bu sahədə olan tapşırıqlarını yerinə yetirməlidirlər.

2019-cu ilin I yarısında rayonda ekoloji məsələlər də diqqət mərkəzində saxlanılmış, ətraf mühitin mühafizəsi məqsədi ilə inzibati tədbirlər həyata keçirilərək 10563 manat cərimə tətbiq edilmişdir. Ötən dövrdə 20,5 ha sahədə mədəni meşə əkini aparılmışdır. Bundan başqa, rayonda 14 ha sahədə fındıq, qoz və şabalıd ağaclarından ibarət aqrobağ salınmışdır.

2019-cu ilin altı ayı ərzində rayon ərazisində Torpaqların sel sularından mühafizə edilməsi, suvarma şəbəkəsinin təmiri və əhatəsinin genişləndirilməsi, suvarma suyundan səmərəli istifadə edilməsinə diqqət artırılmış, 635,2 min m3 həcmində cay yataqları, 195,4 min m3 həcmində suvarma kanalları təmizlənmiş, kanallar üzərində olan 9 ədəd hidrotexniki qurğunun, Muxax çayda və Tala çayda 200 m3 daş-beton bəndlərin tikintisi, eləcə də Muxax çayda və Tala çayda 1241 m3 həcmində daş-beton bəndlərin təmiri işləri həyata keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin "Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırması və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" 12 fevral 2019-cu il tarixli 952 nömrəli Sərəncamına əsasən 2019-cu ildə rayonun Zaqatala şəhərində, Əliabad qəsəbəsində, Aşağı Tala, Çökək, Dağlı, Yengiyan, Lahıc, Qımır, Gözbarax, Mamrux, Ələsgər, Muxax və Yuxarı Tala kəndlərində-cəmi13 ədəd subartezian quyularının qazılması nəzərdə tutulmuşdur. Artıq Lahıc və Yengiyan kəndində, Əliabad qəsəbəsində subartezian quyuları qazılmış, Aşağı Tala kəndində isə subartezian quyusunun qazılmasına başlanılmışdır. 2019-cu ilin birinci yarımili ərzində rayonda bütün maliyyə mənbələri hesabına 11 milyon 852 min manat həcmində tikinti, abadlıq və quruculuq işləri görülmüşdür. Keçən dövr ərzində şəhərin Şəhriyar küçəsində Fövqəladə Hallar Nazirliyinin xətti ilə inşa edilən çoxmənzilli yaşayış binasıistifadəyə verilmiş, rayonda ümumi sahəsi 6212.4 kvm olan 49 ədəd fərdi yaşayış evi tikilərək istifadəyə verilmiş, sahibkarlar tərəfindən rayonda 1milyon 549,2 min manat həcmində yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksək mərtəbəli yaşayış binalarının tikintisi aparılmış, Fındıqlı kənd uşaq bağçasında təmir işləri aparılmışdır. Amerika Birləşmiş Ştatları Şərq-Qərb İdarəçilik İnstitutu qeyri-hökumət təşkilatı ilə birgə həyata keçirilən SEDA layihəsi əsasında Zaqatala şəhərinin şimal-qərb yaşayış məassivində və Əliabad qəsəbəsində yem emalı sexi tikilmiş, Yuxarı Çardaxlar kəndində içməli su xəttinin bərpası tədbirləri həyata keçirilmişdir. 13 iyun 2019-cu il tarixində ABŞ səfiri Li Litzenberqerin iştirakı ilə Yuxarı Çardaxlar kəndində su təminatı layihəsinin başa çatması münasibəti ilə tədbir keçirilmişdir. 2019-cu ilin birinci yarımili ərzində rayonda mənzil fondunun saxlanması üçün ayrılmış vəsait hesabına H.Z.Tağıyev küçəsi, döngə 2, 4 saylı binanın 300 kvm dam örtüyü, H.Əliyev prospekti 61 saylı binanın 717 kvm fasadları və həyətinin istinad divarının fasadı, 160 kvm pilləkən qəfəsi təmir edilmişdir. Bundan başqa Zaqatala şəhərinə yağan güclü dolu nəticəsində dam örtükləri yararsız hala düşmüş H.Əliyev prospekti 11, Nizami küçəsi 7 və 28 may küçəsi 97 saylı binaların ümumilikdə 997 kvm dam örtükləri yenilənmişdir. Eyni zamanda şəhər abadlığına ayrılmış vəsait hesabına müxtəlif küçələrdə 516 kvm səki, 250 metr su arx kanalı təmir edilmiş, SMD-20 yaşayış massivində yağış sularının kənarlaşdırılması üçün 252 metr uzunluğunda yeni su arxı inşa edilmişdir. A.Qardaşov küçəsində mövcud su arxının təmiri işlərinə başlanılmışdır.



Zaqatala rayonunun yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlər hesabına 37 km uzunluğunda Əliabad-Muğanlı-Faldarlı-Qandax-Yengiyan-Əliabad avtomobil yolunun və Muxax-Zəyəm-Yuxarı Çardaxlar-Qarqay avtomobil yolunun yenidən qurulması işləri başa çatdırılmışdır. Hazırda avtomobil yolunda yol avadanlıqlarının quraşdırılması, dayanacaqların tikintisi və xətlənmə işləri aparılır.



"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Zaqatala Elektrik Şəbəkəsi tərəfindən əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə 14,5 km uzunluğunda 10 kV-luq hava xətləri təmir edilmiş, 34,2 km uzunluğunda 0,4 kv-luq elektrik verilişi xətti SİP kabel xətti ilə əvəz edilmiş, 47 ədəd transfarmator məntəqəsi cari təmir edilmiş, 560 ədəd smart tipli, 850 ədəd elektron markalı sayğaclar quraşdırılmış, 10 kv-luq hava xəttində 44 ədəd, 0,4 kv-luq hava xəttində 310 ədəd dayaq dəyişdirilmişdir.

Cari ilin altı ayı ərzində internet istifadəçilərin sayı 510 nəfər artaraq 01.07.2019-cu il tarixə 14961 nəfərə, telefon abunəçilərin sayı 23535 nəfərə çatmışdır. 2019-cu ilin birinci yarımili ərzində rayon Mərkəzi Xəstəxanasının həkimləri tərəfindən 103913 nəfər ambulator qəbul, 1005 nəfər evə gediş olmuş, 701 uşaq doğulmuşdur.

Rayonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən əhalinin kütləvi profilaktik müayinələrə cəlb olunması işi başa çatmış, 5 mərkəzdə həyata keçirilmiş tibbi müayinələrdə 76189 nəfər müayinədən keçirilmiş, 6991 nəfər ambulator, 112 nəfər stasionar müalicəyə cəlb edilmişdir ki, bundan da 12 nəfər üzərində cərrahiyyə əməliyyatı aparılmışdır.

Xalq Yaradıcılığının 2019-2023-cü illər üzrə İnkişafına dair Strateji Fəaliyyətin Planına uyğun olaraq rayonda bir sıra tədbirlər həyata keçirilmiş, Xalq Teatrının iştirakı ilə rüb ərzində tamaşalar göstərilmiş, Milli teatrın yaranmasının 146 illiyi ilə əlaqədar "Xalq səneti və Milli Teatrın əsası" mövzusunda Xalq teatrının kollektivi ilə görüş keçirilmiş, məktəblilərin yaz tətili ərəfəsində nağıl tamaşa oynanılmış, Beynəlxalq Teatr gününə həsr olunmuş Xalq Teatrının iştirakı ilə tamaşa nümayiş etdirilmişdir.

Cari ilin aprel və may aylarında Heydər Əliyev Mərkəzində təşkil onmuş Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar tələbə - gənclər arasında Heydər Əliyev irsinin təbliğinə həsr olunmuş lektoriya, "Xalqımızın sönməyən günəşi" adlı şeir və mahnı müsabiqəsi keçirilmişdir.

Mərkəzi Kitabxanalar Sistemində Heydər Əliyev irsinin təbliği ilə əlaqədar keçirilmiş bir sıra tədbirlərlə yanaşı 11-ci ənənəvi "Kitab bayramı"nda hesabat dövründə müxtəlif müsabiqələrdə fərqlənən şagirdlər və oxucular fəxri fərmanlarla təltif edilmişlər.

**Azərbaycan Respublikasında 2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq rayonun mədəniyyət müəssisələrində "2019-cu il Nəsimi ilidir" başlığı altında sərgilər təşkil edilmiş, silsilə tədbirlərin keçirilməsi davam etdirilir.**

**Məzahir ƏHMƏDZADƏ**